# Bakı iki böyük hərbi güc arasında dialoq məkanıdır

**Xəbər verildiyi kimi, bugünlərdə Azərbaycan paytaxtında daha bir önəmli beynəlxalq görüş dünyanın diqqət mərkəzində oldu. Bakıda NATO-nun Hərbi Komitəsinin sədri Ser Stüart Piiçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, müdafiə nazirinin müavini, ordu generalı Valeri Gerasimov arasında növbəti görüş də uğurla baş tutdu.**

**Hər iki nümayəndə heyətini qəbul edən Prezident İlham Əliyev ölkəmizin görüş yeri kimi seçilməsinin olduqca qürurverici olduğunu bildirdi.**

NATO-nun Hərbi Komitəsinin sədri general Ser Stüart Piiçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdə dövlətimizin başçısı qeyd etdi ki, artıq neçə il ərzində Azərbaycanın mühüm görüş yeri seçilməsini yüksək qiymətləndiririk, dostluq və tərəfdaşlıq əlaməti hesab edirik.

Ümidvarıq ki, əvvəlki, bugünkü və növbəti görüşlər sülh və sabitliyə töhfə verəcəkdir.

NATO-nun Hərbi Komitəsinin sədri Ser Stüart Piiç xoş mərama və yaradılan şəraitə görə dərin razılığını bildirdi. Azərbaycan rəhbəri isə əlavə etdi ki, NATO-nun etibarlı tərəfdaşıyıq və bizim hərbçilərimiz Əfqanıstanda NATO hərbçiləri ilə çiyin-çiyinə xidmət edirlər. Bildiyiniz kimi, bu yaxınlarda biz hərbçilərimizin sayını 30 faiz artırdıq, indi onların sayı 120 nəfərdir. Həmçinin biz Sülh Naminə Tərəfdaşlıq Proqramı çərçivəsində də işləyirik. Eyni zamanda, Əfqanıstana gedən yüklərə mühüm logistik və nəqliyyat dəstəyini təmin edirik.

Prezident İlham Əliyev Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən dedi ki, Rusiyanın və NATO-nun ali hərbi komandanlığının Bakıda görüşlər keçirməsi yaxşı ənənəyə çevrilib. Keçən il üç dəfə belə görüş olub. Bu il artıq ikinci görüşdür. Yəni, bu ənənə artıq yaşayır və düşünürəm ki, davam edəcək. Azərbaycan Prezidenti Rusiya hərbi komandanlığının nümayəndələrinə bildirdi: “Sizin Bakıya hər gəlişiniz, o cümlədən hərbi əməkdaşlığı, çox uğurla inkişaf edən hərbi-texniki əməkdaşlığı bir daha müzakirə etmək və gələn il qarşılıqlı fəaliyyətin yollarını müəyyənləşdirmək üçün bir fürsətdir. Hesab edirik ki, Rusiya ilə Azərbaycan arasında həm ənənəvi istiqamətlərdə, həm də yeni istiqamətlərdə əməkdaşlıq potensialını artırmağa imkan var”.

Hər iki görüşdə tərəflər beynəlxalq və regional təhlükəsizlik problemlərini, həmçinin hərbi və hərbi-texniki əməkdaşlığın aktual məsələlərini, o cümlədən müdafiə idarələrinin Xəzərdə qarşılıqlı fəaliyyətini müzakirə ediblər.

Azərbaycan həm NATO ilə əməkdaşlıq çərçivəsində, həm də Rusiya ilə yaxın münasibətlər qurmuş, qarşılıqlı faydalı əməkdaşlıq və strateji tərəfdaşlıq əlaqələrini daim inkişaf etdirir.

Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü uğurlu balanslı siyasətinin nəticəsidir ki, istər Rusiyanın hərbi-siyasi dairələri, istərsə də NATO ilə qarşılıqlı hörmətə və etimada əsaslanan yüksək əlaqələrimiz sabit olaraq saxlanılmaqda davam edir. Hər iki hərbi mərkəz Prezident İlham Əliyevi etibarlı tərəfdaş, dünya səviyyəli siyasi lider kimi qəbul edir, Onunla əməkdaşlıq əlaqələrini yüksək qiymətləndirirlər.

Hərbi ekspertlər və politoloqlar bildirirlər ki, Rusiya və NATO generallarının son 3 ildə 5 dəfə Azərbaycan paytaxtında görüşüb fikir mübadiləsi aparması iki siyasi-hərbi qütb arasında vacib dialoq mühiti formalaşdırır və beynəlxalq aləmdə gərginliyi azaltmağa xidmət edir. Bu baxımdan Bakıda təşkil olunan dialoqlar önəmli rol oynayır. Müzakirə və fikir mübadiləsinin münasib məkanı olaraq Bakının seçilməsi isə heç də təsadüfi deyil. Rusiya və NATO generallarının görüşlərinin Bakıda keçirilməsi belə dialoqlar üçün ölkəmizin dünya siyasətinin bölgədə ən önəmli tərəfdaşı olması ilə də sıx bağlıdır.



Şərqlə Qərbi, Şimalla Cənubu, müxtəlif sivil mədəniyyətləri ahəngdar surətdə qovuşduran Azərbaycan artıq beynəlxalq ziddiyyətlərin əsas toqquşma arealı olan Avrasiya məkanında, eləcə də Qafqaz regionunda dünya güclərinin üstün və əlaqələndirici bir rol ayırdığı dövlətdir.

NATO-nun Cənubi Qafqazdakı əsas tərəfdaşı olan Gürcüstanın Rusiya ilə münasibətləri hələ də gərgindir. Bu baxımdan, Rusiya görüş yeri kimi Gürcüstanı qəbul etməz. Ermənistanın MDB məkanının bir çox ölkələrini əhatə edən Kopllektiv Təhlükəsizlik Təşkilatının üzvü olması, başqa bir hərbi-siyasi gücün for-postuna çevrilməsi isə Nato-nu qane etmir. Bunlarla yanaşı, Ermənistanın qonşu Azərbaycan dövlətinin ərazisinin 20 faizini işğal altında saxlaması da hər iki qütbü təcavüzkar ölkəni görüş yeri seçməkdən çəkindirən ciddi səbəbdir.

Azərbaycan isə hərbi bloklardan kənardadır, Qoşulmama Hərəkatının fəal üzvü və hazırda bu birliyin lideridir. Son illərdə Azərbaycanın belə önəmli beynəlxalq görüşlərdə təşəbbüskar rolunda çıxış etməsi, dialoqlara evsahibliyi etməsi ölkəmizin sülh və əminamanlıq məkanı olmasını bir daha dünyaya nümayiş etdirir.

*R.TAHİR, “Xalq qəzeti”*